# Sülh mövzusu

## Müəllim və məktəblər üçün ideyalar

**21 sentyabr – Beynəlxalq Sülh Günündən real həyati situasiyalardan istifadə etməklə fəal öyrənmə üçün istifadə edin. Bu qısa təlimat müəllimlərə dərslərdə tətbiqi mümkün olan Sülh Günü layihələri barədə ideyalar verir.**

- **• I HİSSƏ •** **Sülh niyə öyrədilməlidir?** – Sülh Gününün faydaları
- **• II HİSSƏ•** **Fənlərdə Sülh Günü** – Kiçik bir təhlil



*Benjamin Lee Harrington - Lead Educator, Peace One Day*

# Sülh Gününün gənclərə faydası

21 sentyabr – Beynəlxalq Sülh Günü BMT-nin hər bir üzv dövləti tərəfindən qəbul edilmiş qeyri-zorakılıq və qlobal atəşkəs günüdür; daha sülhpərvər və ədalətli bir dünya üçün gənclərin öz təşəbbüslərini ifadə edə bildikləri bir gün olması ilə o, artıq özünü sübuta yetirib. Hər il gəncləri 21 sentyabr – Beynəlxalq Sülh Gününə cəlb etmək üçün **DÖRD** güclü səbəbimiz vardır!

## 1. Davranış dəyişikliyi

Sülh Günündə şagirdlər daha sülhpərvər davranış nümayiş etdirirlər: “Bir Gün Sülh” Qlobal Məktəblər Şəbəkəsi arasında keçirilən sorğuda iştirak edən məktəblərin üçdə ikisindən çoxu (68%) bildirdi ki, şagirdlər Sülh Günündə daha sülhpərvər davranış nümayış etdirirlər (məktəbdəki hər hansı bir gün ilə müqayisədə). 2007-ci il Sülh Günündə bütün partiyalar atəşkəs elan edərkən BMT-nin Əfqanıstanda qeydə aldığı şiddətin 70%-dək azalması nümunəsində də bunu nəzərdən keçirmək maraqlı olar. Bir Gün Sülhə dair təqdimat filmi (https://www.youtube.com/watch?v=I-p2nLFAF-Q) bu tarixi hadisəni işıqlandırır və şagirdlərin Sülh Gününün 19 illik heyrətamiz fəaliyyətini öyrənmələri baxımından böyük əhəmiyyət daşıyır (sadəcə 5 dəqiqə ərzində!).

## 2. Konstruktiv debat və praktik fəaliyyət

Sülh Günü ilə əlaqədar tədbirlərin **planlaşdırılması prosesi** öyrənmək üçün böyük motivasiyadır. Nə üçün? Çünki öyrənmə aktuallıqdan yaranır və Sülh Günü gündəlik təcrübələrin əsaslandığı məsələlərlə birbaşa əlaqədardır. Evlərimizdə, məktəblərimizdə, icmalarımızda və bütünlükdə dünyadakı həyatla. Müəllim olaraq, **kurikulumda Sülh və Dayanıqlılıq** mövzularının inteqrasiyasına nə qədər tez başlasaq, o qədər tez konstruktiv debat və praktik fəaliyyətə nail olacağıq.

## 3. Qeyri-adi qabiliyyət və istedadın ifadəsi

Sülh Günündəki fəaliyyətlər **sadəcə xəyal gücü ilə məhdudlaşır.** 2001-ci ildən bəri dünya üzrə on milyonlarla gənc rəsm, musiqi, rəqs, idman, media, ədəbiyyat və s. vasitəsilə bu genişlənən hərəkata qucaq açıb.
Sosial elmlərdən *ictimai şənliklərə*... 21 sentyabrda şagirdləriniz özlərini necə ifadə edəcəklər?

## 4. Əsas mükafat

Yaradıcı töhfə və komanda işi ilə əldə olunan nailiyyət sayəsində gənclər **müsbət dəyişiklik yaratmağın** nə demək olduğunu təcrübi yolla anlayırlar. Bu, gələcək töhfələr üçün ilk addım ola bilər, gənc liderlərə çox böyük imkanlar yarada bilər. Sizləri, müəllimlər olaraq, şagirdlərinizlə birgə elə bu gündən Sülh Gününün planlaşdırılmasına başlamağa dəvət və təşviq edirik ki, daha sülhpərvər və ədalətli bir gələcək yarada bilək.

# FƏNLƏRDƏ SÜLH GÜNÜ

## Kurikulumda Sülh Gününün inteqrasiyası

***"Bir Gün Sülh" təşkilatı*** **illər ərzində Sülh Günündə fəallıq göstərən müxtəlif yaş qruplarından olan gəncləri müşahidə etmişdir. Aşağıdakı səhifələrdə dərslərdə istifadəsi mümkün olan Sülh Günü layihələri verilmişdir.**

**Bütün müəllimləri bu ideyalardan istifadə etməyə, şagirdlərin, tələbələrin, məktəb və icmanın xüsusi ehtiyacları, arzuları və hədəflərinə uyğun şəkildə onları tənzimləməyə, inkişaf etdirməyə və genişləndirməyə səmimi qəlbdən təşviq edirik.**

TIP!

** Məsləhət: Bu təlimatla əlaqəli vəsaitləri saxlamaq üçün kompüterinizdə **"Sülh Günü" adlı qovluq yaradın.***

## Savadlılıq

Savadlılıq sülh barəsində danışmağa imkan verən vasitədir. Yazı prosesi sadəcə çox yaxşı terapiya üsulu olmaqla yanaşı, həm də oxuculara təsiretmə və onları dəyişdirmə vasitəsidir. Şagirdləri cəlb etmək və motivasiya etməyin başlıca hədəfləri "yazılarının oxucuların hisslərini nə dərəcədə oyada bilməsi", "yazıları ilə nə qədər maraq yarada bilməsi" ola bilər.

## • İNANDIRICI MƏKTUB YAZILIŞI

St Paul Junior məktəbində müəllimlər 7-8 yaşlı şagirdlərini həftə boyu davam edən **"İnandırıcı məktub yazılışı"** mövzusu ətrafında Sülh Gününə cəlb ediblər. Üç ayrıca keçirilmiş dərs ərzində şagirdlər Sülh Gününün dəstəklənməsinə yönəlmiş 60 ədəd əl ilə yazılmış məktub hazırlamışdır. Onlar bu məktubları 60 məktəb direktoruna ünvanlamışdılar. İşin sonunda məktəbdən çıxıb birgə poçt qutusunun yanına getmək və öz işlərinin potensial təsirindən qürurlanmaq şagirdlər üçün yaxşı təcrübə idi.

Uşaqlar tərəfindən təqdim edilən bu layihəni təsvir edən **5 dəqiqəlik videoya** (https://www.youtube.com/watch?v=5APZDCP_8_M) baxın.

**Sizin şagirdləriniz inandırıcı yazı üsullarını tətbiq edə bilirlərmi? Sülh Günündə onlar hansı vasitələrdən istifadə edə bilərlər? Bəlkə şeir, nağıl və ya məruzə şagirdlərinizin bacarıqlarını ortaya çıxara bilər?**

# Dram

## • TAMAŞA VASİTƏSİ İLƏ EMPATİYA QURMAQ

Dinc cəmiyyətin ayrılmaz hissəsi bir-birinin halına yanan insanlardır. Empatiya imkan verir ki, bizdən fərqli düşünən və hərəkət edən şəxsi qəbul edək. Empatiya dərin refleksiyaya və şəxsi inkişafa şərait yaradır.

Beş səhifəlik **"End Bullying Role Play" ("Bullinqə son qoyaq")** dərs icmalı (https://drive.google.com/file/d/1jntf8gZ2QKqxTmCK59B8E2CBmLAjYI7F/view) məktəblərdə, işdə, ictimai yerlərdə baş verənlər ətrafında düşünməyə və empatiya hissini stimullaşdırmağa təkan verir.

# Riyaziyyat və İqtisadiyyat

- **ÖLÇÜ**

***“Əgər nəyisə ölçə bilmirsənsə, onu təkmilləşdirə bilməyəcəksən”***

***(Peter Druker)***

“Bir Gün Sülh” təşkilatında biz Sülh Gününün inkişafını və təsirini ölçürük. Kiçik yaşlı şagirdlər cədvəllərin və qrafiklərin qurulmasını təcrübədən keçirmək üçün Sülh Gününə aid hesabatlardan istifadə edə bilərlər. Sonra isə Sülh Gününün miqyasını və təsirini təqdim edə, müzakirələr və təhlillər apara bilərlər.

Yuxarı sinif şagirdlərinə gəlincə isə onlar işdə və həyatda ölçmələrin vacibliyini anlamaq üçün yaxşı təcrübə qazanacaqlar. **Onlar sülhə aid hansı layihəni qiymətləndirə bilərlər və niyə? Hansı metodologiyadan istifadə edə bilərlər? Ölçmələrdən hansı nəticəni çıxara bilərlər? Bu nəticələr onların qərarlarına və irəli aparan fikirlərinə necə təsir edəcək?**

- **TƏDQİQAT**

Riyazi tədqiqat, əlalxüsus **qlobal iqtisadiyyatda**, başqa bir maraq sahəsidir. Müharibəyə sərf edilən illik və gündəlik xərclər nə qədərdir? Bunun əksinin xərci nə qədərdir? (Bu pul nəyə istifadə edilə bilərdi?) Bunun hansı təsirləri ola bilər?

**İqtisadiyyat və Sülh İnstitutunun saytını** (http://economicsandpeace.org/) nəzərdən keçirin. O, sülhlə bağlı məlumatları və təhsilə aid resursları ortaya qoyan böyük mənbədir.

INSTITUTE FOR ECONOMICS & PEACE

# Fiziki tərbiyə / İdman

**İdman xalqları bir araya gətirən, sədləri aradan qaldıran, komanda işini, ünsiyyəti və bərabərliyi təbliğ edən universal bir dildir. Biz bu gücdən gənclərimizi birləşdirmək üçün istifadə edə bilərik. Bu, həm də Sülh Gününə dəstək olar.**

## • BİR GÜN BİR QOL

2008-ci ildə irəli sürülmüş **"Bir Gün Bir Qol"** futbol təşəbbüsü Sülh Gününü təbliğ edir və idmana sevgi vasitəsilə insanları birləşdirir. O vaxtdan bəri Sülh Gününü qeyd etmək üçün on minlərlə "Bir Gün Bir Qol" matçları keçirilmişdir (BMT-nin 193 üzvünü bir araya gətirməklə). **Nə üçün sizin məktəbiniz bura cəlb edilməsin?**

## • MARAQ OYATMAQ

İdman ilə məşğul olan şagirdləri **öz sevdiklərini həyata keçirməyə** həvəsləndirin. Üzgüçülər üzgüçülüklə bağlı şənlik təşkil edə bilərlər. Futbolun bir növü olan reqbi həvəskarları Kliv Vudvord tərəfindən son zamanlar başladılan "Sülh üçün çalış" idman kampaniyasına qoşula bilərlər. "Sülh dalınca qaç", "Sülh üçün sıralan" idman yarışları və ya mədəni idman növü olan kriketdən zövq ala bilərlər.

İdmanla əlaqəli olan başqa fəaliyyətləri nə üçün əlavə etməyək və Sülh Günü ilə bağlı dəstək kampaniyası yaratmayaq? Məsələn, "Hər addım qaçış hesabdandır" və ya "Hər bir qol sayılır" təşəbbüsünə yerli səviyyədə dəstək verməyə çalışmaq. Məktəb tərəfindən yönəldilən və şagirdlər tərəfindən idarə edilən icmada sülhün təmin edilməsi layihəsinə maliyyə yardımları cəlb etmək.

**Unutmayın: Yeganə limit təxəyyülünüzdür!**

# İncəsənət

## ÖZ YARADICILIĞINI NÜMAYİŞ ETDİR

Gənclərin Sülh Gününü anlamasına yardım edən **əyləncəli və təsirli** yollardan biri incəsənətdir. Film çəkməkdən dəbli geyimlərə, canlı rəsmlərdən fırfıra basdırmağa qədər hər növ incəsənət şagirdlərinizi kütləvi yaradıcılığın silahı edə bilər. Onların fəaliyyətini sərgiləyin.

İctimaiyyət üçün planlaşdırılan və təşkil olunan sərgi gənc sənətçiləri təkcə öz mükəmməl əsərlərini üzə çıxarmağa həvəsləndirmir, bu, həmçinin diqqət, təşkilatçılıq, komandada iş bacarıqları tələb edir. Bunların hamısı **həyati bacarıqların** inkişafına kömək edir.

İşə başlamaq üçün **"Peace Day Exhibition Lesson Plan" ("Sülh Günü sərgisi dərs icmalı")** dərs icmalını (https://drive.google.com/file/d/1KYrYmKrv7nW2fHrNShiH4wFVYDIANlz_/view) yükləyin və ilk mərhələdə fikirlərini istiqamətləndirməkdə şagirdlərə kömək edin.

# Tarix

## NƏHƏNGLƏRİN ÇİYİNLƏRİNDƏ DURMAQ

*Uğur qazanmış kimsə kiminsə tərəfindən ruhlandırılmışdır.*

Digərlərinin həyat hekayətlərini başa düşməklə biz dəyərli xüsusiyyət və davranışları əxz edə bilərik. **"Great Peacemakers Like Me and You" ("Mən və sən kimi sülhməramlılar")** dərs planı (https://drive.google.com/file/d/1Sk-Kz1ULgw98guB6TYXIpJtInls6Elvu/view) əsasında işləməklə şagirdləri müsbət davranış modellərinə yönləndirin. Burada onlar dünyanın güclü təsirə malik şəxsləri haqqında məlumatlar öyrənəcəklər.